**UOT 39**

**Tamilla Hikmət qızı Əhmədova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: tamillahikmetqizi@mail.ru**

# GƏNCLƏRİN SUBMƏDƏNİYYƏTİ MÜASİR SOSİOMƏDƏNİ MƏKANDA

**Xülasə:** Gənclər submədəniyyətlərinin fəlsəfi əsaslarını tədqiq edən bir çox nəzəriyyələr mövcuddur. Elmi ədəbiyyatda bioloji, gender, sosioloji, pedaqoji, psixologiya, sosial iş, sənətşünaslıq və kulturoloji tədqiqatlar, postmodernizm, poststrukturalizm, diskurs nəzəriyyələri gənclərin submədəniyyətlərin fəlsəfi əsasları haqqında nəzəriyyələr və s. qeyd etmək olar. Gənclər və gənclər birliklərinin öyrənilməsinə sosioloji yanaşmaların inkişafı uzun tarixə malikdir. Xüsusi sosial qrup kimi gəncləri müəyyən edən əsas xarici konsepsiyalar: Amerikan psixoloqu S. Hollun yeniyetməlik fenomeninə həsr edilmiş tədqiqatları, K. Mannqeymin nəsillərarası yanaşması, T. Parsonsun struktur-funksional yanaşma çərçivəsində Gənclər mədəniyyəti anlayışını müəyyən edən tədqiqatları, Eyzenştadtın ideyaları, dəyərlərin bir nəsildən digərinə ötürülməsi mexanizmləri haqqında konsepsiya, E. Erikson, L. Foyer, D.Rismen psixoanalitik konsepsiyalarıdır. R. Merton, A. Koenn, R. Klouord, L.Olin gənclər submədəniyyətlərin tədqiqatında struktur-funksionalist yanaşmanın nəzəriyyəçiləridir. Gənc subkultural birliklərin öyrənilməsinə fərqli yanaşma 1960 - 1970-ci illərdə Böyük Britaniyada müasir Mədəni Araşdırmalar Mərkəzi tərəfindən aparılırdı. C.Klark, T.Cefferson, M.Breyk, P.Uillis, D.Hebdic, S.Koen, F.Koen və s. adı çəkilən alimlərin nəzəriyyələri struktur funksionalizm ənənələri ilə varisliyi qırıb, neomarksist sinif yanaşmasına əsaslanan konsepsiya nümayiş etdirdi. Gənclər birliklərinin müxtəlif formaları ingilis tədqiqatçıları tərəfindən mədəni və sosial hakimiyyət uğrunda burjuaziya və proletariat arasında mübarizənin təzahürü kimi şərh edilmişdir. Məs: Qərb sosioloji ənənəsi çərçivəsində T.Rozzak və Ç.Reyç Kontr-Mədəniyyət Konsepsiyası və s.

**Açar sözlər:** Kontr-Mədəniyyət Konsepsiyası, Gənc subkultural birliklər, K.Mannqeymin, T.Parsonsun, T.Rozzak, Ç.Reyç

Submədəniyyət – bir qrup insanların konkret məkan və zamanda sosiallaşma məqsədi ilə, öz nüfuz və iradəsini, yaradıcı potensialını reallaşma niyyəti ilə fərqli davranış tərzi, bədii ifadə, dəyər və semiotikasına məxsus

özünü müəyyən etmə formasıdır. Gənclər submədəniyyətləri asudə vaxtın, dəbin, həyat tərzinin yeni formalarının yaradıcısı və ilk auditoriyasıdır.
Gənclər submədəniyyətinin dərk edilməsi üçün ilk növbədə "gənclik" anlayışının tərifini vermək lazımdır. Yəni hər ölkənin gənclər haqqında fərqli olan qanunda, o cümlədən beynəlxalq hüquqda müəyyən edilmiş yaş hüdudları, sosial-mədəni meyarlar, dəyər sistemləri və s.nəzərə almaq lazımdır. Hesab edirik ki, gənclər submədəniyyətin bir neçə tərifini vermək olar. Müxtəlif ölkələrdə gənclərin fərqli submədəni ənənələri formalaşıb. Belə ki, məhdudiyyətli tərif bu hadisənin tam mənasını əks etdirə bilməz. Nəzərə almaq lazımdır ki, gənclərin submədəniyyətin formalaşması yaşadıqları dövrün sosial-mədəni mühiti ilə bağlıdır. 2020-ci ildə Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasın moderatoru Azərbaycan Respublikası Prezidenti İlham Əliyevdən soruşub ki, "Azərbaycanda gənclərin sayı çoxdur və onlar küçəyə çıxsa və eşidilmələrini tələb etsə, İlham Əliyev onlara nə deyər. İlham Əliyev bu suala cavab olaraq bildirib ki, o, gənclərin nə istədiklərini dinləyərdi: "Lakin fakt ondan ibarətdir ki, Azərbaycan gəncləri küçələrdə deyil, gənclər universitetlərdə, məktəblərdə, gənclər startap biznesindədir, gənclər hökumət məsələlərinə fəal cəlb olunublar". Prezident onu da qeyd edib ki, dünyanın müxtəlif yerlərində gənclərin küçələrdə olması onları nəyinsə qane etmədiyinə görə baş verir.[1]. Gənclərin submədəniyyəti hec də mütləq deyil ki, dağıdıcı, deviant, kontrmədəniyyət meylli olmalıdır. Ölkəmizdə dini radikalist, narkomaniya, kriminal xarakterli submədəniyyətlər olsa da belə, yaradıcı submədəniyyət kimi formalaşan gənclər var. "Bir könüllü" platforması, "İDEA", "YARAT, "YAŞAT" və s. təşkilatların fəaliyyətində gənclərin qabarıq şəkildə öz submədəniyyətləri bilinir: dəyər sistemi, maraq birliyi, peşəkar neologizmlər, həmrəylik, asudə vaxtın səmərəli forması, öz semantikası və s. Lakin bu gənclər cəmiyyətin periferiyasında deyil, onlar marqinal submədəniyyətlərdən fərqli olaraq, milli fəxr və nümunədir. Belə ki, gənclər submədəniyyətlərini biz şərti olaraq üç qrupa bölə bilərik:

- sosiallaşmaya meyilli, yəni cəmiyyətə dəstək və pozitivlik nümayiş edən gənclər. Bu qrupa sosial yardım, ekoloji, etnik, tarixi, vətənpərvər, mədəni və s.tipli təşkilatlar aiddir.
-asosial: reallıqdan uzaq olan həyat tərzi ilə fərqlənən gənclər.
-antisosial: kriminal submədəniyyətlər, dini radikalistlər.

Mədəniyyət anlayışının nəzəri dərkedilməsində müxtəlif yanaşmaların zənginliyi, gəncliyin xüsusi sosial qrup kimi tədqiq edilməsi, gənclər submədəniyyətlərin yaranma səbəbləri, ontologiyası, sosial mədəni əhəmiyyəti haqqında nəzəri refleksiyanın mənbəyi olmuşdur. Gənclərin

submədəniyyətlərinin öyrənilməsində empirik biliklərin təcrübəsi olduqca əhəmiyyətlidir.

Gənclər submədəniyyətlərin fəlsəfi əsaslarını tədqiq edən bir çox nəzəriyyələr mövcuddur. Elmi ədəbiyyatda bioloji, gender, sosioloji, pedaqoji, psixologiya, sosial iş, sənətşünaslıq və kulturoloji tədqiqatlar, postmodernizm, poststrukturalizm, diskurs nəzəriyyələri gənclərin submədəniyyətlərinin fəlsəfi əsasları haqqında nəzəriyyələri və s. qeyd etmək olar. Gənclər submədəniyyətləri tədqiqatlarda deviantlıq, delinkvent sosiallaşma terminlərə istinad edilir. Deviantlıq konkret zaman və məkanın, eləcə də hüquq, ümumbəşəri, əxlaq, mədəniyyət normalardan kənara çıxan davranış adlanır. Sosiallaşma gənc insanın ictimai dəyər, norma, təcrübə və qaydaları qəbul etmək, cəmiyyət təbəqəsində özünü müəyyən etmək, öz rolunu yerinə yetirmək üçün məsuliyyət daşımaq deməkdir. Hesab edilir ki, insan xoşbəxtliyi, həyat məmnuniyyətinin sosiallaşma ilə bağlılığı var. Delinkvent davranış cinayətə meyilli, hüquqa ziddiyyətli həyat tərzi adlanır. Delinkvent termini ilk dəfə Çikaqo Universitetinin tədqiqatçıları tərəfindən meydana gəlmişdi.

Gənclərin submədəniyyətin fəlsəfəsini öyrənən **struktur funksionalizmə** yanaşma əsası 1920-30-cu illərdə Amerika Birləşmiş Ştatlarının Çikaqo Universitetinin Sosiologiya və Antropologiya kafedrasının tədqiqatlarından başlayır. Bu dövrdə Çikaqo şəhərində gənclər arasında cinayətkarlıq və hüquqpozmalar, kriminal qruplaşmaların sayı getdikcə artırdı və Çikaqo elmi məktəbinin ilk nümayəndələri məhz deviant, asosial, cinayətkar gənclərin birləşmələri submədəniyyətlər kimi müəyyən edirdilər. Tədqiqatçılar belə nəticəyə gəldilər ki, narkomaniya, quldurluq, banditizm kimi subqrupların meydana gəlib, fəallaşması ənənəvi sosial institutların deqradasiyası ilə bağlıdır. Ailə, kilsə, məktəb gənc nəslə qarşı fundamental nüfuzunu itirmiş və mənəvi-əxlaqi vəziyyəti nəzarətdə saxlamaq imkanı əsaslı zəifləmişdir. Urbanizasiyanın artan templəri ilə uyğun gələn gənclərin kriminallaşma meylləri, alimlərin belə qənaətə gəlməsinə əsas verdi ki, gənclərin hüquqa ziddiyyətli davranışı ictimai mühitə reaksiyadır və psixoloji sağlamlığın pozuntusu ilə şərtlənmir.

Belə vəziyyətin səbəblərini öyrənmək üçün Çikaqo Universitetinin alimləri gənclərin sosial ətraf mühitini və uğurlu sosiallaşma üçün perspektivlərin imkanları və imkansızlığın təhlilini aparırdılar. A. Koen gənclərin delinkvent davranışlarını cəmiyyətin struktur problemlərinin əksi kimi, urbanizasiyanın çağırışlarına əks reaksiya kimi müəyyən edir. Təhsil və iş yeri ilə təmin olunmayan, nə zamansa mülkiyyətçi, fermerlərin övladları, sənayeləşmə, urbanizasiya, millitarist tendensiyaların nüfuzun artması nəticəsində gələcəyə ümidsizliklə baxan gənclər, Koenin fikrincə kriminal qruplaşmanın hədəfi və elektoratıdır. Hər hansı ekoloji sistem kimi, anomiyalurbanizasiya - iqtisadi böhran, korrupsiyanın artması, siyasi mübarizə,

sosial dəyişikliklərin destruktivliyi ilə, kriminal meyilli submədəniyyətlərin meydana gəlməsini şərtləndirir.

Gənclər və gənclər birliyinin öyrənilməsinə sosioloji yanaşmaların inkişafı uzun tarixə malikdir. Xüsusi sosial qrup kimi gəncləri müəyyən edən əsas xarici konsepsiyaları qeyd edək:

-Amerikan psixoloqu S. Hollun yeniyetməlik fenomeninə həsr edilmiş tədqiqatları.

-K. Mannqeymin nəsillərarası yanaşması.

- T. Parsonsun struktur-funksional yanaşma çərçivəsində Gənclər mədəniyyəti anlayışını müəyyən edən tədqiqatları.

- Eyzenştadtın ideyaları, dəyərlərin bir nəsildən digərinə ötürülməsi mexanizmləri haqqında konsepsiya.

- E. Erikson, L. Foyer, D.Rismen psixoanalitik konsepsiyaları.

- Gənclər submədəniyyətlərin tədqiqatında struktur-funksionalist yanaşmanın nəzəriyyəçiləri: R. Merton, A. Koenn, R. Klouord, L.Olin.

Gənc subkultural birliklərin öyrənilməsinə fərqli yanaşma 1960 - 1970-ci illərdə Böyük Britaniyada müasir Mədəni Araşdırmalar Mərkəzi tərəfindən aparılırdı: C. Klark, T. Cefferson, M. Breyk, P. Uillis, D. Hebdic, S.Koen, F.Koen və s. Adı çəkilən alimlərin nəzəriyyələri struktur funksionalizm ənənələri ilə varisliyi qırıb, neomarksist sinif yanaşmasına əsaslanan konsepsiya nümayiş etdirdi. Gənclər birliklərinin müxtəlif formaları ingilis tədqiqatçıları tərəfindən mədəni və sosial hakimiyyət uğrunda burjuaziya və proletariat arasında mübarizənin təzahürü kimi şərh edilmişdir.

Qərb sosioloji ənənəsi çərçivəsində T. Rozzak və Ç. Reyç Kontr-Mədəniyyət Konsepsiyası. Müasir xarici sosiologiya da gənclərin submədəniyyətlərinə komporativist, fənlərarası geniş problematikaya həsr olunan E.Bennet, M.Fizerstoun, S.Redhed, D.Maqqlton tədqiqatları.[2].

Gənclər submədəniyyətlərin tədqiqatında tipoloji metod son dövrdə ən aktual hesab edilir. Bu günə kimi əldə edilən həm nəzəri, həm də faktiki materialın bolluğu, rəqəmsal məkan, qrupların fəlsəfəsini öyrənməyə ehtiyac və imkan yaradır. Gənclər submədəniyyətlərinin təsnifatında bu tiplər daha qabarıq öz fərdiyyətini nümayiş etdirir: məsələn: xippi, panklar, qotlar, emu, anime, qeymerlər, xakerlər, baykerlər, avtoşlar, meyxana submədəniyyəti, diqqerlər, idman fanatları, ekstremal idman: parkur, skeyter və s.

Gənclərin submədəniyyətlərini əsas cərəyanlara görə ayırmaq olar. Submədəniyyətlərin musiqi zövgünə görə: qotik rok, qotik-metal, hindi-rok, xevi-metal, pank-rok, reqqi, reperlər və s. Bədii əsərlərin fanatları: Otaku-anime, tolkienistlər, potteromanlar və s. Marağa əsaslanan submədəniyyətlər: bayker, bardlar, qeymerlər, hakerlər, satanistlər və s. Bəzi submədəniyyətləri daha yaxın təhlil edək: Hippy sosial tərkibi heterogen deyil, lakin ilk növbədə

yaradıcı gənclərdir. Yeni yaradıcılığa başlayan şairlər, rəssamlar, musiqiçilər, xarici görünüş, geyim forması: cinsindən asılı olmayaraq-düz bir ayrılmaya daranmış uzun saçlar, başın ətrafında xüsusi lent, əlində – muncuq, ağac, dəridən əldəqayırma emal edilən bilərziklər, olduqca böyük trikotaj sviter, denim çantası, tikmə ilə bəzədilmiş pul və sənədləri saxlamaq üçün cüzdan. Xippi jarqonu üçün ingilis dilindən alınma sözlər, gərəksiz yerdə şəkilçilərdən istifadə etmək səciyyəvidir. Musiqi stili: Qərb musiqisindən Hippi psixodelik roka üstünlük verir. Tez-tez narkotik istifadə müşahidə olunur. Hippi ideologiyasının bir hissəsi bütün nəticələrlə "azad sevgi"dir. Hippi döyüşkən deyil, onlar adətən pasifistlərdir. Birincisi "Məhəbbətə hə, müharibəyə yox" şüarı idi. (Müharibə deyil, sevgi edin). İdeologiya: Hippi tez-tez "Sülh, dostluq, saqqız" sözləri ilə ifadə edir. Pul və bahalı şeylər kimi maddi dəyərlərə tipik etinasızlıq nümayiş edirlər. Müxtəlif şərq dinləri və təlimləri Hippi ideologiyasına təsirini göstərmişdir.

Gənclər mədəniyyətində ötən əsrin 90- cı illərində tolkienist hərəkatı və onunla əlaqəli tolkienist submədəniyyət yaradılmışdır. Tolkienistlər – məşhur ingilis filoloq və yazıçısı Con Ronald Ruel Tolkien (tolkienistlərin jarqonunda- professor) pərəstişkarıdı. R.R. Tolkien "Üzüklərin Rəbbi", "Silmarion" və başqa əsərləri fantastika janrına aiddir. Tolkien öz əsərlərində möcüzəli varlıqların yaşadığı və onlardan bəziləri dünyanın müxtəlif xalqlarının folklorundan (elflər, trollar, cırtdanlar və s.) Yazıçı (məsələn, Hobbit, insan və dovşan hibridi), hər biri öz tarixi, coğrafiyası və hətta öz dilinin olması (məsələn, elfian dili) haqqında nəql edir. Tolkienistlər bu fantastik dünyanın cazibəsinə aşıq olub, özlərini bu aləmin sakinləri kimi təsəvvür edirlər. Beləliklə, adi həyatda qeyri-adi davranış modelləri tolkienistlərin səciyyəsidir. Yəni, özünü Elf hesab edən tolkienist özünü əsərdə olan Elf dünyagörüşünə uyğun aparmağa çalışır. Oyunlar zamanı (tolkienist jarqonunda "xiçek") bir qrup gənc rollar paylayaraq Tolkienin əsərlərindən müxtəlif süjetləri səhnələşdirirlər.

Panklar (ingilis dilindən punk- tullantı, zibil, çürük, lazımsız bir şey) müəyyən dərəcədə Hippi submədəniyyəti ilə oxşar cəhətləri olsa da, bu iki cərəyan bir-birinə əleyhdardır. Sosial tərkibi: elitar hippilərdən fərqli olaraq, panklar kasıblar məkanının uşaqlarıdır, baxmayaraq ki, istisnalar da olur. Xarici görünüş, geyim forması: standart Pankçı "irokez" və digər qeyri adi saç düzümü ilə fərqlənir. Panklar səliqəsiz və baxımsız geyimləri ilə üsyanlarını nümayiş edirlər. Pankların sancaqlara sevgisi çox böyükdür, onlar – jaketə, köynəklərə, cinslərə və hətta qulaqlara da sancaq taxırlar. Panklar əsasən əsgər ayaqqabıları geyirlər. Musiqi stili: pank mədəniyyətinin banisi, ingilis qrupu "Sex pistols", "Ramones" və "Dead Kenedies" hesab olunur. 80-ci illərin

ortalarında "Exployted" qrupu peyda oldu və o, "hardrock" adını almış və müstəqil musiqi üslubuna çevrilmişdir.

Panklar submədəniyyəti alkoqol və narkotiklərə meyilli submədəniyyət hesab edilir.

Skinhead, şarp-skinzsub mədəniyyəti aqressiv şovinist, eyni zamanda irqi bərabərsizliyə qarşı çıxan qrup adlanır. Onların geyimi, bədii ifadəsi millitarist, brutal və destruktivdır, skinhedlər ən aqressiv, kriminala meyilli idman azarkeş sayılır.

Ən "sərt" submədəniyyətlərdən biri Qərbdə həmişə bayker sayılırdı. (ing.bike-velosiped, motosiklet) Baykerlərin ideologiyasında əsas anlayış motosikldir. Bayker üçün bütün dünya motosikl və baykşou ətrafında hərəkət edir.[4].

60-70-ci illərə təsadüf edən Qərb ölkələrin gənclər submədəniyyətləri qeyri ənənəvi, Uzaq Şərq, Latın Amerikası, Afrika mədəniyyətlərinin, bəzən hətta qalıq növləri olan dini inamların, bədii ifadə, etik təsəvvürlərin, geyim və asudə vaxtın forması təsiri altında qalmışdı. Belə ki, cinsi əlaqələrdə pozğunluq və cinsi oriyentasiyanın qeyri müəyyənliyi, yeni mənşəli narkotiklərin yayılması, bütpərəstlik və magiyalı mərasimlər gənclər submədəniyyətlər tərəfindən azadlıq axtarışı kimi yozulurdu. Məhz bu dövrdə dövlətçilik naminə şiddətlə Qərb müstəmləkə siyasətinə qarşı mübarizə aparan milli liderlər, Qərbin gələcəyi olan-gənclərin milli mentalitetinin itirilməsi təhlükəsini yaratmışdı. Tam əminliklə deyə bilərik ki, 60-80-ci illərdə Qərb ölkələrin deviant tipli gənclər submədəniyyətlərin mənşəyi, qeyd etdiyimiz səbəblərlə yanaşı, müstəqillik naminə aparılan Uzaq Şərq, Afrika, Latın Amerikası ölkələrinin, millətlərin ideoloji mübarizə formalarından biri idi. Maraqlıdır ki, Qərbdə bu dövrün deviant, antisosial həyat tərzini təşviq edən submədəniyyətlərin baniləri, yüksək təhsil və savad sahibi, zəngin ailə və sülalələrdən çıxan gənclər idi. Kerruak, Berrouz, Ginzberq, Nil Kessidi, Lüsyen Karr kontrmədəniyyətin fəlsəfəsinin əsasında durublar, lakin müasir dövrdə onların irsi Qlobal Dünya mədəniyyətinin klassikası kimi qəbul edilib.

Gənclər submədəniyyətinin tədqiqatında tipoloji metoda əsaslanan alimlər hesab edirlər ki, gənclərin submədəniyyətlərini, gənclərin hərəkatlarını bu kimi cəhətlərinə görə təsnif etmək olar: sosial-demoqrafik xüsusiyyətlər, maraq dairəsi, üstünlüklər, təhsil səviyyəsi, dəyər sistemi, həyat tərzi, davranışın spesifik formaları, jarqon, bədii ifadə səciyyəsi və s. Deməli dil və simvollar submədəni eyniliyi yaradır və qoruyur. Gənclik yaş qrupuna əsaslanan submədəniyyətlər region, etnik irs, dini, siyasi və s. dünyagörüşü, ümumi maraq və hobbi vasitəsi ilə problemlərlə, bəzən isə imtiyazlarla üzləşərək, formalaşıb və inkişaf edir. Submədəniyyətlərin deviant olduğu halda ana xətt mədəniyyəti arasında yad və doğma münaqişələr yaranır, gənclər submədəniyyətləri ümumi

normalardan uzaqlaşaraq semantik intizamsızlıq yaradır. Məsələn dil qaydaları pozaraq, jarqon yaradarkən, submədəniyyət öz fərdiliyini və qrup üçün öz semantik məkanı qurmağa imkan verir. Dominant mədəniyyət və submədəniyyət arasında interaktivlik, qarşılıqlı təsir nadir hal deyil. Dəb, musiqi, rəqs, bütövlükdə bədii ifa və asudə vaxt formaları gənclər submədəniyyətdən magistral mədəniyyətə keçid daimi silsilə xarakter daşıyır. Məsələn, ABŞ gənc emiqrant əhalidən təşəkkülünü tapan kriminal submədəniyyətlərin xronikaları sonralar klassik kinematoqrafın ssenari üçün əsas olmuşdu. Yəni gənclər jarqon vasitəsi ilə öz semantik məkanını yaradaraq, submədəniyyətlərini magistral mədəniyyətə nüfuz etməyə nail olublar. Qlobal dünyanın rəqəmsal imkanları daha çox submədəni linqvistik ifadələr leqitimləşir: mem, qrafiti, xipster, komiks, avatar, anime, apqreyd, avtoşluq, aftepati, veyp, inflüenser, zumer, instabloqer və s. kimi sözlər gündəlik həyat ilə yanaşı, rəsmi sənədləşmədə, elmi ədəbiyyatda istifadə edilir. Müxtəlif submədəniyyətlərin özünə məxsus nitq davranışı xarakterizə edilir. Tolkienistlər submədəniyyəti ziyalı, kübar ünsiyyətə, nitqə üstünlük verirlər, panklar, skinxedlər və s. aqressiv, destruktiv danışıq tərzi ilə fərqlənir. Elə submədəniyyətlər var ki, onlar üçün nitq patternləri əsas deyil: breykdanserlər, fleşmobçular və s. Gördüyümüz kimi, müasir gənclər submədəniyyətləri təsnif etməkdə linqvistik yanaşma metodu tədqiqat ücün kifayət qədər imkan yaradır. Gənclərin sübmədəniyyətlərin təsnifində dil faktorunu nəzərə alaraq, onların formalarını ayırmaq mümkün olur. Beləliklə, gənclərin subkulturalarının tipologiyasında dil amilinin nəzərə alınmasının ilk təcrübəsi onları linqvosentrik, (bloqerlar, repperlər, Tolkienistlər, otaku, furri) və linqvosentrikliyi ilə seçilməyən (panklar, qotlar, metallistlər, futbol azarkeşləri və s.), real ünsiyyətə (baykerlər, diqqerlər, skinhedlər, panklar və s.) və ya virtual ünsiyyətə (hakerlər, geymerlər, fleşmoblar) yönəldilir. Submədəniyyətlər var ki, kio, nitq davranışın markeri ilə xarakterizə olunur. Tolkienistlər, panklar, qopniklər xüsusi nitq-davranışdan istifadə etməyənlər (ekstremal idmançılar, qraffiti sənətçiləri, breykdansçılar, hakerlər və s.) qruplar mövcuddur.[2.5]. Submədəniyyətlərin daxilində sosial tiplərin müəyyən edilməsi gənclər siyasətin, sosial kontrolun daha səmərəli olmasına imkan verir. Bir çox submədəniyyətlər aktuallığını itirib, tədricən yox olurlar. Hətta demək olar ki, deviant tipli gənclər submədəniyyətlərin son aqibəti intellektual, aksioloji, bədii ifadələr əmtəəyə çevrilib, bazara çıxarılması ilə süquta doğru deqradasiya olmaqdır. XXI əsr ilk illərində gəncliyi tədqiq edən bir çox tədqiqatçılar "Gənclər submədəniyyətin süqutunu" elan etmişdilər. Təbii ki, burada üsyankar, kontrmədəniyyət nəzərdə tutulur. XXI əsr postsənaye ideologiyası varlıqda nə varsa əmtəəyə, ya da pullu xidmətə çevirib, satışa çıxarmaq pozulmaz iradəsi, üsyanın özünü belə mənasız edir, gənclər

submədəniyyətlərın üsyankar ifadə formaları, qeyd etdiyimiz kimi, marketinqin gübrəsinə çevrilir. Gənclər submədəniyyətləri tədqiq edərək, gənclər siyasətinə mütləq nəzər yetirmək lazımdır. İnsan hüquqları, vətəndaş, sivil cəmiyyət naminə beynəlxalq təşkilatlar bir çox uğurlu islahatlar aparır. Lakin son illər qlobal dünya görünməyən aqressiya, millitarizasiya, qida defisiti təhlükəsi, nüvə təhdidləri və s. bu kimi hadisələri yaşayır. Bir çox ölkələrdə uşaqların 12 yaşa qədər evdə baxımsız qalması, uşaq bağçasına, ibtidai məktəbə qışda əlcəksiz gəlməsi və s. sosial xidmət tərəfdən valideynləri hüququndan məhrum edə bilər. İnfantil, "istixana" şəraitində böyüyən uşaq gecə bombardman edilən evdə valideynlərin həlakını görür, milyonlarla məktəbli qaçqın həyatı yaşamağa məcbur qalır. Belə isə, gənclərin mədəniyyətində ilk növbədə onları həyat amansızlığı ilə üzləşməyə hazır etmək konsepsiyasının gerçəkləşməsi mütləqdir. Tədris edilən həyat bilgisi real bilgilərə sahib olmaq mədəniyyətini yaratmalıdır.

## Ədəbiyyat siyahısı:

1. https://www.bbc.com/azeri/azerbaijan-51217634
2. https://cyberleninka.ru/article/n/lingvisticheskie-parametry-tipologizatsii-sovremennyh-molodezhnyh-subkultur/viewer
3. https://www.dissercat.com/content/molodezhnye-subkultury-osnovaniya-tipologizatsii
4. https://cyberleninka.ru/article/n/vidy-molodezhnoy-subkultury-preobladayuschie-v-sovremennoy-molodezhnoy-srede/viewer

**Тамилла Хикмет кызы Ахмедова**

# СУБКУЛЬТУРА МОЛОДЕЖИ В СОВРЕМЕННОМ СОЦИОКУЛЬТУРНОМ ПРОСТРАНСТВЕ

**Резюме:** Существует множество теорий, исследующих философские основы молодежных субкультур. В научной литературе: биологическая, гендерная, социологическая, педагогическая, психологическая, социальная работа, искусствоведение и культурология, постмодернизм, постструктурализм, теории дискурса, теории о философских основаниях молодежных субкультур и др. Развитие социологических подходов к изучению молодежи и молодежного сообщества имеет долгую историю. Основные зарубежные концепции, определяющие молодежь как особую социальную группу: исследования американского психолога С.Холла, посвященные феномену подросткового возраста. Межпоколенческий подход К.Мангейма. Исследования Т.Парсонса, определяющие понятие

молодежной культуры в рамках структурно-функционального подхода. Идеи Эйзенштадта, понятие о механизмах передачи ценностей от одного поколения к другому. Психоаналитические концепции Э.Эриксона, Л.Фойера, Д.Рисмана. Теоретики структурно-функционалистского подхода в изучении молодежных субкультур: Р.Мертон, А.Коэн, Р.Клоуард, Л.Олин. Дифференцированный подход к изучению молодежных субкультурных ассоциаций в 1960-е-1970-е годы в Великобритании проводил Центр современных культурологических исследований: Дж.Кларк, Т.Джефферсон, М.Брейк, П.Уиллис, Д.Хебдик, С.Коэн, Ф.Коэн и др. Теории названных ученых нарушили преемственность с традициями структурного функционализма и продемонстрировали концепцию, основанную на неомарксистском классовом подходе: различные формы молодежных объединений интерпретировались английскими исследователями как проявление борьбы буржуазии и пролетариата, культурной и социальной власти. Исследования Э.Беннета, М.Фезерстоуна, С.Редхеда, Д.Магглтона, посвященные компаративистским, междисциплинарным широким проблемам молодежных субкультур в современной зарубежной социологии.

**Ключевые слова:** концепция контркультуры, молодежные субкультурные объединения, К.Мангейм, Т.Парсонс, Т.Роззак.

**Tamilla Hikmet gizi Ahmedova**

## YOUTH SUBCULTURE IN MODERN SOCIO-CULTURAL SPACE

**Summary**: there are many theories that explore the philosophical foundations of youth subcultures. In the scientific literature: biological, gender , sociological, pedagogical, psychology, social work, art criticism and culturological studies, postmodernism, poststructuralism, discourse theories related theories of youth about the philosophical foundations of subcultures, etc. can be noted. The development of sociological approaches to the study of youth and Youth Unity has a long history. The main foreign concepts that define youth as a special social group: American psychologist S. Hall's studies devoted to the phenomenon of adolescence. K. Mannheim's intergenerational approach. T. Parsons ' studies defining the concept of youth culture in the framework of the structural-functional approach. Eisenstadt's ideas, the concept of mechanisms for the transfer of values from one generation to another. E. Erikson, L. Foyer, D.Rismen psychoanalytic concepts. Theorists of the structural-functionalist approach in the study of youth subcultures: R. Merton, A. Koenn, R. Klouord, L.Olin. A differentiated approach to the study of young

subcultural associations is carried out by the Center for modern cultural studies in Great Britain in the 1960s - 1970s: C. Clark, T. Jefferson, M. Break, P. Willis, D. Hebdic, S.Koen, F. Koen and so on. The theories of the mentioned scientists broke the succession with the traditions of structural functionalism and demonstrated a concept based on the neo-Marxist class approach: various forms of youth associations were interpreted by British researchers as a manifestation of the struggle between the bourgeoisie and the proletariat for cultural and social power . Within the Western sociological tradition, T. Rozzak and Ch. The Concept Of Counterculture Rachel . Modern foreign sociology is also devoted to youth subcultures as a comparativist, interdisciplinary broad problematics. E. Bennett, M. Featherstone, S. Redhead, D. Muggleton researches, which are dedicated to the comparativist, interdisciplinary broad problems of youth subcultures in modern foreign sociology.

**Key words:** concept of counterculture, young subcultural associations, K. Manngeymin, T. Parsons, T. Rozzak, Ch. Rachel

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyeva**